UOT 32:93/94

ELDAR SALAYEV
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının doktorantı
salayevec@gmail.com

DÖVLƏT İDARƏÇİLİYİNİN FORMALARI: NƏZƏRİ ƏSASLAR VƏ PRAKTİKİ TƏTBİQLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/111/231-237

Dövlət idarəçiliyinin formaları müasir dövrdə həm nəzəri, həm də praktiki baxımdan aktuallıq kəsb edən mühüm bir sahədir. Qloballaşma, texnoloji inkişaf və cəmiyyətlərin artan sosial tələbləri idarəetmə formalarının yalnız ənənəvi hüquqi və inzibati çərçivələrlə məhdudlaşmadığını, həm də sosial, siyasi və beynəlxalq amillərlə sıx bağlı olduğunu göstərir. Tədqiqatda dövlət idarəçiliyinin formalarının nəzəri əsasları Platon və Aristotelin klassik yanaşmalarından başlayaraq, Hobbs, Lokk və Russo tərəfindən işlənmiş ictimai müqavilə nəzəriyyəsinə, eləcə də müasir konsepsiyalara – yeni ictimai idarəetmə, yeni ictimai xidmət və ictimai dəyər yanaşmalarına qədər izlənilmişdir. Bütün bunlar göstərir ki, dövlət idarəçiliyi formaları yalnız struktur mexanizm deyil, həm də legitimlik, effektivlik və vətəndaş yönümlülüyün təmin olunmasına xidmət edən sosial institutlardır. Praktik müstəvidə dövlət idarəçiliyi formalarının tətbiqi müxtəlif modellərdə özünü göstərir. Parlament respublikaları qanunverici orqanın üstünlüyü ilə seçildiyi halda, prezident üsul-idarəsində güclü icra hakimiyyəti ön plana çıxır. Bürokratik idarəçilik modeli normativ sabitlik və strukturlaşmanı təmin etsə də, çeviklik baxımından məhdudiyyətlər yaradır. Buna qarşılıq, şəbəkə idarəçiliyi forması dövlət, özəl sektor və vətəndaş cəmiyyətinin birgə fəaliyyətini təşkil edərək qlobal çağırışlara daha effektiv cavab verir. Müasir texnologiyalar, xüsusilə rəqəmsal idarəçilik və elektron hökumət təşəbbüsləri, idarəetmə formalarının daha şəffaf, çevik və vətəndaş mərkəzli olmasına şərait yaradır. Azərbaycan nümunəsində "ASAN xidmət" modeli bu tendensiyanın uğurlu tətbiqini göstərir. Nəticə etibarilə, dövlət idarəçiliyinin formalarının uğuru onların nəzəri əsaslarının praktiki adaptasiya ilə birləşdirilməsindən, yəni sabitlik və çevikliyin balanslaşdırılmasından asılıdır.

Açar sözlər: dövlət idarəçiliyi, idarəetmə formaları, ictimai müqavilə, şəbəkə idarəçiliyi, elektron hökumət.

Giriş. Müasir dövrdə dövlət idarəçiliyinin formalarının öyrənilməsi qlobal transformasiyalar, texnoloji inkişaf, siyasi dəyişikliklər və vətəndaşların artan gözləntiləri fonunda xüsusi aktuallıq kəsb edir. Qloballaşma dövlətlərin yalnız daxili idarəçiliklə məhdudlaşmadığını, beynəlxalq əməkdaşlıq şəbəkələrində aktiv rol oynamasını tələb edir. Eyni zamanda, rəqəmsal idarəçilik, şəffaflıq, hesabatlılıq və inklüzivlik kimi çağırışlar dövlət idarəçiliyinin ənənəvi formalarının yenidən nəzərdən keçirilməsini zəruri edir. Demokratik dövlətlərdə legitimliyin gücləndirilməsi, avtoritar sistemlərdə isə idarəçilik böhranlarının qarşısının alınması idarəetmə formalarının çevik və adaptiv olmasını qaçılmaz edir. Azərbaycan Respublikası da bu proseslərin təsirindən kənarda deyil və idarəçilikdə həyata keçirilən institusional islahatlar, elektron hökumət təşəbbüsləri və vətəndaş yönümlü xidmət modelləri bu mövzunun aktuallığını daha da artırır.

Bu baxımdan, tədqiqatımızın məqsədi dövlət idarəçiliyinin formalarının nəzəri əsaslarını və onların müasir praktik tətbiqlərini müqayisəli şəkildə təhlil etməkdir. Bu çərçivədə, tədqiqatda müqayisəli təhlil, tarixi-analitik yanaşma və normativ-hüquqi analiz metodlarından istifadə olunmuşdur. Müqayisəli təhlil klassik və müasir dövlət idarəçiliyi formalarının fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə imkan vermişdir. Tarixi-analitik yanaşma idarəçilik formalarının müxtəlif dövrlərdə sosial, siyasi və iqtisadi şəraitə uyğun olaraq necə transformasiya olunduğunu izah etmişdir. Normativ-hüquqi analiz isə konstitusional prinsiplərin, siyasi rejimlərin və idarəçilik modellərinin hüquqi əsaslarının müəyyən edilməsinə xidmət etmişdir.

Dövlət idarəçiliyinin formalarının nəzəri əsasları. Dövlət idarəçiliyinin formalarının nəzəri əsasları dövlətin mahiyyəti və funksiyaları ilə sıx bağlıdır. Dövlət yalnız hüquqi və siyasi sistem deyil, eyni zamanda idarəetmə institutlarının kompleks fəaliyyət mexanizmidir. İdarəetmə formaları bu mexanizmin necə təşkil olunduğunu, hansı prinsiplər üzərində qurulduğunu və cəmiyyətin ehtiyaclarına hansı metodlarla cavab verdiyini göstərir. Bu baxımdan, dövlət idarəçiliyinin formaları dövlətin təşkilati strukturunu və fəaliyyət prinsiplərini əks etdirən fundamental nəzəri kateqoriyadır.

Bu baxımdan, dövlət idarəçiliyinin formalarının təməlində klassik siyasi nəzəriyyələr dayanır. Platon və Aristotelin dövlət və idarəçilik haqqında fikirləri formaların nəzəri bazasını qoymuşdur. Platonun ideallaşdırılmış dövlət modeli və Aristotelin qarışıq idarəçilik forması haqqında ideyaları sonrakı dövrlərdə dövlət idarəçiliyinin nəzəri əsaslarının inkişafına təsir göstərmişdir. Bunlar dövlət idarəçiliyinin yalnız hüquqi mexanizm deyil, həm də etik və sosial ölçülərə malik olduğunu sübut edir [2].

Dövlət idarəçiliyinin formaları konstitusionalizm prinsipləri ilə də müəyyən olunur. Konstitusiya dövlətin əsas idarəetmə formalarını hüquqi cəhətdən təsbit edən sənəddir. Respublika, monarxiya, prezidentlik və parlament idarəçiliyi kimi formalar konstitusion quruluşun tərkib hissəsi olaraq dövlət idarəçiliyinin əsas konturlarını müəyyənləşdirir. Dövlət idarəçiliyinin formalarının nəzəri əsaslarında siyasi rejimlərin təsiri mühüm yer tutur. Avtoritarizm, totalitarizm və demokratiya kimi rejimlər idarəetmə formalarının konkret məzmununu formalaşdırır. Demokratik rejimdə idarəçilik formaları iştirakçılıq, şəffaflıq və hesabatlılıq üzərində qurulur, avtoritar sistemdə isə daha çox mərkəzləşmə və sərt nəzarət üstünlük təşkil edir. Beləliklə, siyasi rejim dövlət idarəçiliyinin formalarını müəyyənləşdirən əsas faktor kimi çıxış edir.

Dövlət idarəçiliyinin formaları inzibati-hüquqi nəzəriyyələr kontekstində də izah olunur. Bu yanaşmaya əsasən, dövlət idarəçiliyi normativ aktlar, inzibati strukturlar və icra mexanizmləri vasitəsilə formalaşır. İctimai idarəçilik burada hüquqi çərçivənin tətbiqi, inzibati orqanların funksional bölgüsü və icra hakimiyyətinin səlahiyyətləri ilə tənzimlənir. Bu isə idarəetmə formalarının hüquqi əsaslarının əhəmiyyətini vurğulayır. Bununla yanaşı, dövlət idarəçiliyinin formalarının nəzəri əsaslarında tarixi-müqayisəli yanaşma da mövcuddur. Müxtəlif dövrlərdə dövlətlərin idarəçilik formaları sosial-iqtisadi şərtlərə uyğun dəyişmişdir. Feodalizm dövründə mərkəzləşmiş monarxiya, sənaye inqilabı dövründə isə bürokratik idarəçilik modeli üstünlük qazanmışdır. Müasir dövrdə isə demokratik və inklüziv idarəçilik formaları daha çox aktuallıq kəsb edir[3].

Dövlət idarəçiliyinin formalarının nəzəri əsaslarının mühüm izahlarından biri ictimai müqavilə nəzəriyyəsinə bağlıdır. Hobbs, Lokk və Russo kimi filosofların fikirlərinə görə, dövlət hakimiyyətinin formalaşması və idarəçilik formalarının seçilməsi cəmiyyətin razılığına əsaslanır. İctimai müqavilə ideyası belə deməyə əsas verir ki, insanlar təbii vəziyyətdən çıxaraq təhlükəsizlik və nizam naminə müəyyən hüquqlarını dövlətə ötürürlər. Bu prosesin nəticəsi olaraq yaranan idarəçilik forması xalqın razılığı ilə legitimlik qazanır. İdarəetmə formalarının əsaslandığı bu nəzəri çərçivə dövlətin yalnız zor gücünə deyil, həm də ictimai dəstəyə söykənməsinin zəruriliyini ön plana çıxarır.

Eyni zamanda, ictimai müqavilə nəzəriyyəsi göstərir ki, hakimiyyətin legitimliyi idarəetmə formasından asılı olaraq müxtəlif mənbələrdən qaynaqlana bilər. Demokratik idarəçilikdə legitimlik geniş ictimai iştirak, seçkilərdə iştirak və vətəndaşların dövlətlə qarşılıqlı münasibətlərində yaranan razılıq üzərində qurulur. Burada dövlət-vətəndaş münasibətləri qarşılıqlı etimad və razılıq prinsiplərinə əsaslanır. Avtoritar idarəçilikdə isə bu legitimlik formal xarakter daşıyır, çünki xalqın iradəsi məhdudlaşdırılır və dövlətin idarəçilik gücü əsasən zor, nəzarət və repressiya mexanizmləri ilə qorunur. Beləliklə, ictimai müqavilə nəzəriyyəsi dövlət idarəçiliyi formalarının mahiyyətini açmaqla yanaşı, onların legitimlik bazasını da izah edən əsas nəzəri dayaq kimi çıxış edir[7].

Müasir dövlət idarəçiliyi nəzəriyyələri isə öz növbəsində idarəçilik formalarının təməlini gücləndirmişdir. Yeni ictimai idarəetmə, yeni ictimai xidmət və ictimai dəyər yanaşmaları idarəetmə formalarının yalnız struktur deyil, həm də sosial məzmun daşıdığını göstərmişdir. Bu nəzəriyyələr idarəçiliyin formalarını vətəndaş mərkəzli, nəticəyönümlü və çoxaktorlu əməkdaşlıq əsasında izah edir.

Dövlət idarəçiliyinin formalarının nəzəri əsasları həm də legitimlik və effektivlik prinsiplərinə söykənir. Hər bir idarəçilik forması cəmiyyətin qəbul etdiyi legitimlik dəyərlərinə uyğun olmalı və

effektiv fəaliyyət göstərməlidir. Əks halda, idarəetmənin forması böhranla üzləşir və dəyişiklik zərurəti yaranır. Bu baxımdan, idarəetmənin formaları yalnız siyasi və hüquqi mexanizm deyil, həm də cəmiyyətin gözləntilərinə cavab verən sosial konstruksiya kimi nəzərdən keçirilir.

Nəticədə dövlət idarəçiliyinin formalarının nəzəri əsasları göstərir ki, bu anlayış yalnız hüquqi və inzibati mexanizmlərlə məhdudlaşmır, həm də siyasi rejimlər, ictimai müqavilə yanaşması, konstitusionalizm prinsipləri və müasir nəzəriyyələrlə zənginləşən çoxşaxəli bir konsepsiyadır. Tarixi inkişafın müxtəlif mərhələlərində formalaşan bu nəzəri bazalar dövlətin legitimliyi, səmərəliliyi və cəmiyyətlə münasibətləri üçün təməl rol oynamışdır. Müasir dövrdə isə idarəçilik formaları təkcə nəzəri mülahizələrin deyil, həm də qloballaşma, texnoloji transformasiya və vətəndaşların artan iştirakçılıq tələblərinin təsiri ilə yenidən formalaşır. Bu səbəbdən, nəzəri əsasların təhlili müasir dövlət idarəçiliyinin praktik tətbiqlərinə keçid üçün mühüm zəmin yaradır.

Dövlət idarəçiliyinin formalarının praktik tətbiqləri və müasir çağırışlar. Dövlət idarəçiliyinin formalarının praktik tətbiqləri ən əvvəl konstitusiya ilə müəyyən olunan idarəçilik mexanizmlərində özünü göstərir. Məsələn, parlament respublikalarında (Almaniya, İtaliya) dövlət idarəçiliyi forması qanunverici orqanın üstünlüyü və icra hakimiyyətinin parlament qarşısında məsuliyyəti üzərində qurulur. Prezident üsul-idarəli dövlətlərdə isə (ABŞ, Braziliya) idarəçilik forması güclü icra hakimiyyətinə söykənir və prezident birbaşa xalq tərəfindən seçilərək geniş səlahiyyətlər əldə edir. Monarxiya modelində (Böyük Britaniya, İspaniya) dövlət idarəçiliyi simvolik monarxiya ilə demokratik parlament institutlarının sintezini təşkil edir. Bu formaların hər biri cəmiyyətin tarixi inkişafı və siyasi ənənələrinə uyğun tətbiq edilir. Praktik tətbiqdə dövlət idarəçiliyinin formaları idarəetmə orqanlarının qarşılıqlı fəaliyyət mexanizmləri ilə də müəyyənləşir. Demokratik idarəçilik formaları daha çox hakimiyyət bölgüsü, şəffaflıq və vətəndaş iştirakına söykənir. ABŞ-da güclü məhkəmə sistemi, Böyük Britaniyada parlamentin üstünlüyü bu formaların nümunəsidir. Avtoritar idarəçilik formalarında isə praktikada hakimiyyət bir mərkəzdə cəmləşir, inzibati aparatın nəzarəti artır, vətəndaş iştirakçılığı məhdudlaşır.

Dövlət idarəçiliyinin formaları həmçinin idarəçilikdə tətbiq olunan idarəetmə metodları ilə ölçülür. Məsələn, bürokratik idarəçilikdə qərarların qəbulunda prosedurların çoxluğu prosesi uzatsa da, normativ sabitliyi təmin edir. ABŞ-da federal idarəçilik bürokratiyası bu formanın klassik nümunəsidir. Şəbəkə idarəçiliyi forması isə müxtəlif dövlət, özəl sektor və vətəndaş cəmiyyəti aktorlarının birgə fəaliyyətini nəzərdə tutur. Avropa İttifaqının idarəetmə strukturlarında bu yanaşma praktiki olaraq geniş tətbiq edilir [5].

Daha detallı ifadə etsək, dövlət idarəçiliyinin formalarının praktik təzahürlərindən biri bürokratik idarəçilik modelidir. Bu formanın əsas xüsusiyyəti qərarların qəbulunda normativ sabitliyin, hüquqi çərçivələrin və prosedurların ön planda olmasıdır. Bürokratiya idarəetmədə ardıcıllığı və obyektivliyi təmin etsə də, çoxsaylı mərhələlər və yazılı prosedurlar səbəbindən operativ qərarların qəbulunu ləngidir. ABŞ-da federal idarəçilik sistemində bu xüsusiyyətlər açıq şəkildə görünür. Məsələn, ABŞ Konqresində qəbul olunan qanunların tətbiqi müxtəlif agentliklər, departamentlər və icra strukturları arasında çoxsaylı prosedur mərhələlərindən keçir[9]. Bu isə bir tərəfdən qərarların legitimliyini artırır, digər tərəfdən isə çevikliyi azaldaraq ictimai narazılıqlara səbəb ola bilir. Buna baxmayaraq, bürokratiya hələ də dövlət idarəçiliyində etibarlılıq və sabitliyin mühüm təminatçısı kimi qəbul edilir.

Bürokratik idarəçiliyin çatışmazlıqlarına cavab olaraq formalaşan şəbəkə idarəçiliyi isə daha çevik və əməkdaşlığa əsaslanan yanaşmadır. Bu modeldə dövlət idarəetməsi yalnız iyerarxik strukturlar vasitəsilə deyil, müxtəlif aktorların – dövlət qurumları, özəl sektor, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin birgə fəaliyyəti ilə həyata keçirilir. Avropa İttifaqı (Aİ) bu modelin ən tipik nümunələrindən biridir. Aİ-nin idarəetmə mexanizmlərində qərarların qəbulunda yalnız üzv dövlətlərin hökumətləri deyil, həm də Avropa Komissiyası, Parlament, müxtəlif ekspert qrupları və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak edir. Bu çoxaktorlu yanaşma həm qərarların legitimliyini artırır, həm də onların müxtəlif sosial qrupların maraqlarına cavab verməsini təmin edir.

Şəbəkə idarəçiliyinin üstünlüyü ondan ibarətdir ki, bu forma qlobal çağırışlara – iqlim dəyişikliyi, miqrasiya, enerji təhlükəsizliyi kimi transsərhəd problemlərə daha effektiv cavab verir. Çünki belə problemlərin həlli təkcə dövlətlərin deyil, fərqli aktorların birgə səylərini tələb edir. Avropa İttifaqında yaşıl enerji strategiyalarının hazırlanması və tətbiqi bunun bariz nümunəsidir. Bu strategiyada yalnız hökumət strukturları deyil, həm də enerji şirkətləri, qeyri-hökumət təşkilatları və elmi mərkəzlər iştirak

edir. Bu da göstərir ki, müasir dövlət idarəçiliyinin formaları artıq təkbaşına idarəçilikdən çox, koordinasiya və əməkdaşlığa əsaslanır. Beləliklə, şəbəkə idarəçiliyi müasir idarəetmə praktikalarında adaptasiya və inklüzivliyin mühüm göstəricisi kimi çıxış edir [1].

Müasir çağırışlar dövlət idarəçiliyi formalarının praktikada daha çevik və adaptiv olmasını tələb edir. Qloballaşma prosesi dövlətlərin sərhədlərdən kənar iqtisadi, ekoloji və sosial problemlərlə qarşılaşmasına səbəb olur. İqlim dəyişmələri, enerji təhlükəsizliyi və beynəlxalq terrorizm kimi məsələlər idarəçilik formalarının milli çərçivədən çıxaraq beynəlxalq əməkdaşlıq mexanizmlərinə inteqrasiya edilməsini tələb edir. Məsələn, BMT-nin iqlim siyasəti üzrə COP sammitləri dövlət idarəçiliyində beynəlxalq şəbəkə idarəçiliyinin nümunəsi kimi çıxış edir.

Texnoloji transformasiya da dövlət idarəçiliyinin formalarına ciddi təsir göstərir. Rəqəmsal idarəçilik, elektron hökumət və süni intellektin tətbiqi dövlət-vətəndaş münasibətlərində yeni idarəçilik formaları yaratmışdır [10]. Estoniya bu sahədə ən uğurlu nümunələrdən biridir: bütün ictimai xidmətlər rəqəmsal müstəviyə keçirilib və vətəndaşlar idarəçilik proseslərinə onlayn formada qoşula bilirlər [11]. Bu isə idarəetmə formalarının artıq yalnız hüquqi mexanizmlərlə deyil, həm də texnoloji vasitələrlə müəyyən olunduğunu göstərir.

Azərbaycan Respublikası üçün də dövlət idarəçiliyinin formalarının praktik tətbiqləri islahatlarla sıx bağlıdır. "ASAN xidmət" modeli dövlət idarəçiliyinin innovativ forması kimi vətəndaş yönümlü xidmətlərin göstərilməsində mühüm rol oynayır. Burada idarəçilik forması şəffaflıq, çeviklik və vətəndaş məmnuniyyəti üzərində qurulmuşdur. Bu praktika klassik bürokratiyanın sərt prosedurlarını aradan qaldıraraq idarəçiliyin müasir formalarını tətbiq etmək nümunəsi kimi diqqət çəkir [5].

Lakin bu sahədə müasir çağırışlardan biri də legitimlik böhranıdır. Bir çox ölkələrdə vətəndaşların dövlətə inamı azaldığı üçün idarəçilik formaları təzyiq altına düşür. Demokratik ölkələrdə bu, seçkilərdə iştirak səviyyəsinin aşağı düşməsi, avtoritar ölkələrdə isə sosial etirazların artması ilə müşahidə olunur. Məsələn, Fransada "sarı jiletlilər" hərəkatı dövlət idarəçiliyinin sosial ehtiyaclara cavab verməkdə çətinliklərini üzə çıxardı. Bu vəziyyət idarəçilik formalarının praktik olaraq legitimlik və effektivlik balansını qorumasını zəruri edir.

Dövlət idarəçiliyinin formalarının praktik tətbiqlərində korrupsiya və şəffaflıq məsələləri də mühüm yer tutur. Hesabatlılıq mexanizmləri olmayan idarəçilik formaları korrupsiyanın yayılmasına və dövlət-vətəndaş münasibətlərində inamsızlığa səbəb olur. Skandinaviya ölkələri (Danimarka, Finlandiya, İsveç, Norveç) isə demokratik idarəçilik formalarının şəffaflıqla birləşdirilməsi nəticəsində dünyada ən aşağı korrupsiya səviyyəsinə nail olmuşdur [8]. Bu, idarəçilik formalarının effektivliyinin yalnız hüquqi çərçivədən deyil, həm də ictimai dəyərlərdən asılı olduğunu göstərir.

Dövlət idarəçiliyində etik problemlər əsasən korrupsiya, şəffaflığın olmaması və ictimai etimadın zəifləməsi ilə bağlıdır. Qərarların qəbulunda şəxsi maraqların üstün tutulması ədalət və bərabərlik prinsiplərinin pozulmasına gətirib çıxarır. Həmçinin, dövlət qulluqçularının etik kodekslərə əməl etməməsi idarəçiliyin legitimliyini və effektivliyini ciddi şəkildə sarsıdır [6].

Nəhayət, müasir praktik tətbiqlərin əsas çağırışlarından biri inklüziv idarəçilikdir. Dövlət idarəçiliyi formaları yalnız mərkəzi hakimiyyətlə məhdudlaşmamalı, yerli özünüidarəetmə orqanlarını, vətəndaş cəmiyyətini və beynəlxalq təşkilatları da idarəçilik prosesinə cəlb etməlidir. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində dövlətlər inklüziv idarəçilik formalarını inkişaf etdirməyə çağırılır. Bu da göstərir ki, idarəçilik formalarının gələcəkdə uğurlu tətbiqi onların çoxaktorlu əməkdaşlıq və vətəndaş yönümlülük üzərində qurulmasından asılı olacaqdır [4].

Ümumiləşdirsək, dövlət idarəçiliyinin formalarının praktik tətbiqləri göstərir ki, bu sahə yalnız hüquqi və siyasi institutlarla məhdudlaşmır, həm də sosial, texnoloji və beynəlxalq amillərlə sıx bağlıdır. Klassik idarəçilik formaları dövlət aparatının sabitliyi və strukturlaşması üçün mühüm baza yaratmış, müasir çağırışlar isə çeviklik, şəffaflıq, inklüzivlik və texnoloji yeniliklərin inteqrasiyasını zəruri etmişdir. Nəticədə, dövlət idarəçiliyinin formalarının uğurlu praktik tətbiqi yalnız normativ qaydaların icrası ilə deyil, həm də cəmiyyətin ehtiyaclarına cavab verən, vətəndaş etimadını qoruyan və qlobal əməkdaşlığa açıq olan adaptiv modellərin qurulması ilə mümkündür. Bu, idarəçilikdə həm milli sabitliyi, həm də beynəlxalq inteqrasiyanı təmin edən əsas strateji istiqamət kimi çıxış edir.

Nəticə. Tədqiqatımız göstərir ki, dövlət idarəçiliyinin formalarının nəzəri əsasları və onların praktik tətbiqlərinin müqayisəli təhlili göstərir ki, bu sahə həm tarixi inkişaf, həm də müasir çağırışların

təsiri altında formalaşmış çoxşaxəli bir konsepsiyadır. Klassik nəzəriyyələr dövlət aparatının sabitliyini və struktur əsaslarını təmin etmiş, müasir nəzəriyyələr isə çeviklik, vətəndaş yönümlülük və çoxaktorlu əməkdaşlığı ön plana çıxarmışdır. Praktik müstəvidə isə idarəçilik formaları hər bir ölkənin siyasi rejimi, hüquqi sistemi, sosial ehtiyacları və beynəlxalq inteqrasiya imkanları ilə bağlı olaraq müxtəlif istiqamətlərdə inkişaf edir. Bütün bunlar göstərir ki, dövlət idarəçiliyinin uğurlu forması yalnız nəzəri baza ilə deyil, həm də onun praktik adaptasiya və innovativ tətbiqləri ilə müəyyənləşir. Bu baxımdan, tədqiqatımız nəticəsində aşağıdakılar müəyyən edilmişdir:

– Klassik idarəçilik formaları (bürokratiya, inzibati-hüquqi yanaşma) normativ sabitlik və strukturlaşmanı təmin etsə də, çeviklik baxımından məhdudiyyətlər daşıyır.

– Müasir idarəçilik formaları (NPM, NPS, ictimai dəyər, şəbəkə idarəçiliyi) çeviklik, inklüzivlik və çoxaktorlu əməkdaşlıq imkanları yaradır.

– Praktik tətbiqdə idarəçilik formaları ölkələrin siyasi rejimlərinə görə fərqlənir: demokratik sistemlərdə iştirakçılıq və şəffaflıq, avtoritar sistemlərdə isə mərkəzləşmə və nəzarət üstünlük təşkil edir.

– Qloballaşma və texnoloji transformasiya idarəçilik formalarının beynəlxalq əməkdaşlıq və rəqəmsal platformalar üzərində yenidən qurulmasını zəruri edir.

– Azərbaycan Respublikası kimi inkişaf edən dövlətlərdə idarəçilik formalarının modernizasiyası (“ASAN xidmət” modeli, elektron hökumət təşəbbüsləri) çeviklik və vətəndaş məmnuniyyətinə əsaslanan yeni nümunələr yaradır.

– Dövlət idarəçiliyinin gələcək uğuru onun nəzəri əsaslarının praktik adaptasiya ilə birləşdirilməsindən, yəni həm sabitlik, həm də çevikliyin eyni vaxtda təmin edilməsindən asılıdır.

ƏDƏBİYYAT

1. Əlirzayeva, F. Azərbaycan Respublikasında dövlət idarəçiliyinin innovativ inkişafının səciyyəvi xüsusiyyətləri. Siyasi elmləri üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı: 2023. 27 s.
2. Əliyev, E. Dövlət idarəçiliyi: nəzəriyyə və praktika. Bakı: Füyuzat, 2023. 231 s.
3. Həbibova, Z. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi: sxemlərlə izah. Bakı: Təhsil, 2018. 231 s.
4. Həsənova, S. Dövlət idarəçiliyində stresin idarəolunması və aradan qaldırılması. Siyasi elmlər üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis. Bakı: 2024. 172 s.
5. Məmmədov, H. Azərbaycan Respublikasında dövlət qulluğu sisteminin təkmilləşdirilməsində innovasiyaların tətbiqi. Siyasi elmlər üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı: 2022. 24 s.
6. Öztepe, M. C. Kamu yönetiminde etik sorunu: Türk kamu yönetiminde etik sisteminin eleştirel çözümlemesi. Ankara: Ankara Üniversitesi, 2013. 406 s.
7. Андрианов, В. Д. Бюрократия, коррупция и эффективность государственного управления: история и современность. Москва: Волтерс Клувер, 2011. 271 с.
8. Denmark and Finland on top of list of least corrupt countries. United Nations. 11/02/2025. URL: https://unric.org/en/denmark-and-finland-on-top-of-list-of-least-corrupt-countries/ [23.10.2025].
9. How Our Laws Are Made. congress.gov. URL: https://www.congress.gov/help/learn-about-the-legislative-process/how-our-laws-are-made [23.10.2025].
10. Jerab, D. The Impact of Digital Transformation on Public Services. September 2024. Conference Paper. URL: https://www.researchgate.net/publication/383836540_The_Impact_of_Digital_Transformation_on_Public_Services [23.10.2025].
11. Study: Estonia has one of the most effective public sectors in the world. July 2017. URL: https://investinestonia.com/study-estonia-has-one-of-the-most-effective-public-sectors-in-the-world/ [23.10.2025].

ЭЛЬДАР САЛАЕВ
докторант кафедры «Государственная служба и кадровая политика»
Академии государственного управления при Президенте Азербайджанской Республики

ФОРМЫ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ: ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ И ПРАКТИЧЕСКИЕ ПРИМЕНЕНИЯ

Формы государственного управления в современную эпоху представляют собой важную область, актуальную как с теоретической, так и с практической точки зрения. Глобализация, технологическое развитие и растущие социальные запросы общества показывают, что формы управления не ограничиваются только традиционными правовыми и административными рамками, но также тесно связаны с социальными, политическими и международными факторами. В исследовании прослеживаются теоретические основы форм государственного управления, от классических подходов Платона и Аристотеля до концепции общественного договора, разработанной Гоббсом, Локком и Руссо, а также современных теорий, нового государственного менеджмента, новой государственной службы и концепции общественной ценности. Всё это показывает, что формы государственного управления являются не только структурным механизмом, но и социальным институтом, обеспечивающим легитимность, эффективность и гражданскую ориентированность. На практике формы государственного управления проявляются в различных моделях. В парламентских республиках преимущество отдаётся законодательному органу, тогда как в президентской системе центральное место занимает сильная исполнительная власть. Бюрократическая модель обеспечивает нормативную стабильность и структурированность, но ограничивает гибкость. В противоположность этому, сетевая форма управления предполагает совместную деятельность государства, частного сектора и гражданского общества, что позволяет более эффективно реагировать на глобальные вызовы. Современные технологии, особенно цифровое управление и инициативы электронного правительства, создают условия для большей прозрачности, гибкости и гражданской направленности. В Азербайджане успешным примером этого является модель «ASAN xidmət». В конечном счёте, успех форм государственного управления определяется их способностью сочетать теоретические основы с практической адаптацией, то есть обеспечивать одновременно стабильность и гибкость.

Ключевые слова: государственное управление, формы управления, общественный договор, сетевое управление, электронное правительство.

ELDAR SALAYEV
PhD Student of the Department of Public Service and Personnel Policy
at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan

FORMS OF PUBLIC ADMINISTRATION: THEORETICAL FOUNDATIONS AND PRACTICAL APPLICATIONS

Forms of public administration in the modern era represent an important field that is highly relevant both theoretically and practically. Globalization, technological development, and the increasing social demands of societies demonstrate that governance forms are not limited to traditional legal and administrative frameworks but are also closely connected with social, political, and international factors. The study traces the theoretical foundations of governance forms, starting from the classical approaches of Plato and Aristotle, through the social contract theory developed by Hobbes, Locke, and Rousseau, and extending to modern concepts such as New Public Management, New Public Service, and Public Value theory. All these perspectives show that forms of governance are not merely structural mechanisms but also social institutions that ensure legitimacy, effectiveness, and citizen orientation. In practice, different models of governance manifest in diverse ways. Parliamentary republics

emphasize the supremacy of the legislature, while presidential systems rely on a strong executive branch. The bureaucratic model guarantees normative stability and structural organization but poses limits to flexibility. In contrast, network governance involves cooperation among the state, the private sector, and civil society, allowing more effective responses to global challenges. Modern technologies, particularly digital governance and e-government initiatives, have created conditions for greater transparency, adaptability, and citizen-centered management. In Azerbaijan, the "ASAN xidmət" model represents a successful example of this trend. Ultimately, the success of governance forms depends on their ability to combine theoretical foundations with practical adaptation, thus achieving both stability and flexibility.

Keywords: public administration, forms of governance, social contract, network governance, e-government.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d.Kərəm Məmmədov, s.e.d. Adil Mirabdullayev.